УДК 336.1
КВТ 60.56
http://dx.doi.org/10.29228/metafizika.23

*Rasim MƏCİDOV**
*(Azərbaycan)*

*Bakı Dövlət Universiteti*

# Azərbaycanda dövlət strukturlarının institutlaşmasında idarəçilik prinsiplərinin rolu

***Xülasə***

*Məqalədə bu günkü iqtisadi reallığa söykənən və institusionalizm nəzəriyyələrinə xas olan yanaşma metodlarından geniş istifadə edilmişdir. Yeni iqtisadi şərait Azərbaycan dövlətinin və dövlət orqanlarında çalışan məmur kontinqentinin qarşısında səmərəli siyası, iqtisadi, sosial və mənəvi konsepsiyalara söykənən idarəçilik proqramları həyata keçirmə tələbini qoyur. İnstitusional dəyişikliklər Azərbaycana daxili və xarici bazarlara sərbəst girişi və çıxışı təmin edə bilər, naticədə bölgə kapitalına (burada əsas etibarı ilə Bütöv Qafqaz nəzərdə tutulur) ev sahibliyi etmək imkanlarını ölkəmizə taleyin "hədiyyəsi" kimi təqdim edər. Məqalədə xüsusi mülkiyyət nəzəriyyəsi, transaksiya məsarifləri, müqavilələr nəzəriyyələri və sosial davranış qaydaları baxımından dovlət daxili iqtisadi təşkilatlarının institusional dəyişikliklərə məruz qalması prosesi nəzərdən keçirilir, səmərəli dövlət mexanizmlərinin bütün müasir tələblərə cavab verməsinin təmin edilməsi yolları araşdırılır. Qeyd edilən problem klassik institusionalizm və neoinstitusionalizm nəzəriyyələrində verilən metodoloji yanaşmalar baxımından nəzərdən keçirilir. Məqalədə azad yaradıcılıq qabiliyyəti, azad sahibkarlıq fəaliyyəti, intellektual kapital, struktur kapitalının daxilində intellektual kapital, institutlaşdırılmış iqtisadiyyat və səmərəli dövlət idarə-*

* Bakı Dövlət Universiteti, Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının doktorantı. mecidov.68@mail.ru,
https://orcid.org/0000-0001-7517-4986

*çilik sistemi, effektiv dövlətin institusional problemlərinə nəzər salınaraq təhlil edilmişdir. Belə bir nəticə çıxarılır ki, qeyd edilən iqtisadi konsepsiyalarına əsaslanan siyasət nəticəsində şəxsiyyətin azad yaradıcılıq qabiliyyəti formalaşır, insanlar arasında qarşılıqlı mənfəət axtarışı real sosial stimula çevrilir. Müstəqil fərdin şəxsi iradəsi və marağı ilə kollektivin və bütövlükdə cəmiyyətin maraqları ilə üst-üstə düşməsi və tamamlaması prinsipi dövlət strukturlarının institutlaşmasına və sosial dövlətin formalaşmasına xidmət edən amil kimi qəbul edilməlidir.*

***Açar sözlər**: institutlar, sosial dövlət, idarəetmənin altsistemləri, intellektual kapital, innovasiya, azad sahibkarlar*

## *Giriş*

Yaxın keçmiş aylarda baş verən bütün hadisələrdən yəqin ki, əksər vətəndaşlarımızın xəbəri olmamış deyil. Bu məsələnin mahiyyətini anladığımız qədər bu məkanda yaşayan hər bir insanda ritorik bir sual yaranır. Bundan sonra nə olacaq və Azərbaycan adlı vətənimiz hansı iqtisadi və siyasi yolla gedəcək. Çox böyük əminliklə qeyd etmək istərdim ki, Frensis Ford Koppolanın yaratdığı "Xaç atası 3" şah əsərində "Maliyyə bir silahdır, siyasət isə tətiyi vaxtında çəkmək qabiliyyətidir" sözləri artıq real həyatımızın göstəricilərini özündə əks etdirir (https://www.independent.ie).

Dünyanın əksər inkişaf etmış ölkələri bu hadisələr dövründə yeni innovasiya inkişaf mərhələsinə qədəm qoyduğu halda, bir çöx ölkələrin idarə etməsində çalışan insanlar hələdə bunun nə olduğunu bilmir və ən yaxşı halda bu prosesin imitasiyası ilə məşğul olaraq bir çox populist şüarlar irəli sürməklə öz ölkəsinin, öz millətinin gələcək taleyi ilə bilərəkdən və ya bilməməkdən maraqlanmırlar.

Əhalinin demoqrafik artım səviyyəsi yüksək olan ölkələri bu problem narahat etsə də, bu ölkələrdə əmək resursların bol olması – xarici kapitalın daxili əmək resurslarına yönəltməklə iqtisadi inkişafın təmin edilməsi – müəyyən mənada onları yarana biləcək hər hansı iqtisadi kataklızmadan çıxartma imkanını verəcəkdir. Lakin əhalinin az olduğu ölkələrin bu problemi necə həll etməsi sözün həqiqi mənasında baş ağrısına çevriləcəkdir. İnzibati mexanizmlərin çox olduğu ölkələrdə isə bu problem həmin ölkələrin iqtisadiyyatına ağır zərbələr endirəcəkdir. Belə ki, bu mexanizmlərin eybəcər doğulmuş "övladları"nın – söhbət məmur zümrəsi və onların sa-

hibkarlara qarşı özbaşınalığından və münasibətindən gedir – innovasiyanın lokomotivi sayılan azad düşüncəli kreativ sahibkarlara, bir sözlə yaradıcılıq potensialına qarşı amansız yanaşmasını göstərməklə bu ideyaların elə beşiyində boğulacağını tam əminliklə qeyd etmək olar. Yüksək vergi və müxtəlif inzibati nəzarət mexanizmləri ali təhsil ocaqlarını bitirmiş yüksək innovativ potensiala malik olan gəncləri öz xoşbəxtliyini başqa məkanlarda, uzaq məmləkətlərdə axtarmağa sövq etməsi bir çox ölkələri ən yüksək kapital sayılan "ağıl və kreativ düşüncə" xəzinəsindən məhrum edəcəkdir (Философия творчества 2015: 452). Bura ölkədən gizli yollarla çıxarılan kapitalın da miqyasını əlavə etsək görünən mənzərənin dəhşətini təsəvvür etmək mümkün deyil.

Bizim ölkənin bir qism vətəndaşı ilkin kapital yığımı deyilən bir mərhələni leqal və yaxud qeyri-leqal surətdə bir təhər başa çatdırmış, lakin onun ölkə daxilinə investisiya şəklində yönləndirmə mərhələsini heç bir halda başlamaq istəmir və buna heç də həvəsli görsənmir. Diqqətlə baxdıqda bu mərhələni başlamaq üçün bizim ölkədə kifayət qədər resursların – sənayeləşmə, urbanizasiya - və ölkə başçısının bu sahəyə yönəlik iradəsini göstərmək kifayət edər ki, uğurların çətin də olsa əldə edilməsi mümkünlüyü başa düşülsün. Bundan başqa bu günə qədər əldə olunan gəlirləri innovasiya iqtisadiyyatının inkişafına yönəltmək üçün mütləq dövlət institutlarını (bura dövlət strukturlarının hamısı daxildir) və bu institutlarda çalışan insanların etikasında, bir sözlə davranış mədəniyyətində ciddi dəyişikliklər etmək lazımdır.

## ***Problemin işlənmə dərəcəsi***

Müasir dövrdə bu mövzu bir çox tədqiqatçılar tərəfindən müxtəlif aspektlərdə öyrənilmişdir. Dövlət strukturlarının institutlaşması və bu institutların sahibkarlarla olan münasibəti məqalənin əsas işlənmə mexanizmlərini müəyyən edir.

Bu kontekstdə bir çox alim və tədqiqatçıların, o cümlədən BDU-nun professoru R. Həsənovun (Гасанов 2019: 7-26), Dünya Bankının layihə məsləhətçisi V. Yefimovun (Ефимов 2007: 49-67), E.D. Babayevin (Бабаев 2015: 18-23) A.B. Makarovun (Макаров 2015: 15-21), N.B. Pankraşınanın (Панкрашина 2015: 232-277) məqalələrini, Loran Tevenonun məruzəsini (Laurent Thévenot 2004: 10-15) nümunə kimi göstərmək olar. Fundamental əsərlər nümunəsində isə R.Kouzun (Коуз 2007:), C. Helbreytin (Гелбрейт 1969:), L. Edvinssonun (Edvinsson 1994:

393), F. Listin (Лист 2005:) çap əsərlərini, M.Meskon, M. Albert, F.Hedourinin birgə yaratdıqları "Menecmentin əsasları"nı, A.N. Oleynikin kitabını (Олейник 2002:) və s. göstərmək olar. Bununla belə Azərbaycanda iqtisadiyyat sahəsində institutlaşma prosesinin özünəməxsusluğu və inkişaf perspektivləri kifayət qədər geniş hələ ki öyrənilməmişdir.

## *Məqalənin məqsədi*

XX əsrin axırları XXI əsrin ilk onilliklərində dövlətin iqtisadiyyatdakı rolunun yenidən qiymətləndirilməsi prosesi güclənmişdir. Bu prosesə Ümumdünya bankının 1998-ci ildə "Dövlətlər dəyişən dünyada" məruzəsi təkan vermişdir. "Səmərəli dövlət bu sənəddə deyildiyi kimi, malların və xidmətlərin təklif edilməsi üçün həyati əhəmiyyətli olduğu qədər, bazarların inkişaf etməsinə və insanların daha sağlam və xoşbəxt həyatlarının yaşamasına xidmət edən amildir. Bunsuz iqtisadiyyatda və sosial mühitdə davamlı inkişaf mümkün deyil" (Экономика развития 2012:).

İnnovativ inkişaf yolu Azərbaycanın qlobal rəqabət sistemində davamlı sosial-iqtisadi inkişafı üçün seçdiyi strateji məqsəd olmalıdır. Məqalənin əsas məqsədi bu bu problemlərə, daha dəqiq desək bu inkişafın ilkin addımlarının atılmasına kompleks yanaşmadır. Bundan başqa məqalədə toxunulan mövzulara və istinadlara diqqət yetirdikdə məlum olur ki, Azərbaycanda belə mövzular haqqında çox az tədqiqat işinin olması məsələsi ciddi problemdir. Bu məqalə işlənilərkən daha çox xarici ədəbiyyata istinadlanma təssüfləndirici xarakter daşıyır. Lakin buna baxmayaraq bu sahədə Azərbaycanda kifayət qədər praktiki təcrübənin olması nəzəriyyələrin tez mənimsənilməsinə geniş imkanlar yaradır.

Məqalənin əvvəlində hamıya məlum olan məmur-biznes münasibətləri haqqında qısa məlumat verilmiş və bu problemin dövlət başçısının daima nəzarətində olması göstərilmişdir. Beləki, bu münasibətlər ilk növbədə biznes yanaşmalarında azad yaradıcılıq qabiliyyətini və onun inkişaf mərhələlərini müəyyən edir.

İntellektual kapital, institutlaşdırılmış iqtisadiyyat və səmərəli dövlət sistemi məqalənin əsas ideyasını təşkil etməklə bir daha bu problemin Azərbaycanda kəskin mövqe xarakterini, daha dəqiq desək, problemin həll olmamasını təsdiqləyir. Bu problemin dəfələrlə ölkə başçısı tərəfindən göstərilməsinə, çıxışlarında qeyd etməsi-

nə baxmayaraq bu sahədə olan inkişaf heç də ürək açan deyildir. Məqalənin əsas məqsədi məhz buna istiqamətlənmişdir.

### *Azərbaycanda məmur və biznes problemi*

Bazar iqtisadiyyatının hərəkətliyini və dinamikliyini təmin edən azad rəqabətin formalaşması və inkişafında kiçik və orta sahibkarlıq fəaliyyəti bu iqtisadiyyatın əsas faktorlarından biri hesab edilir. Belə ki, bazar prinsipləri əsasında fəaliyyət göstərən iqtisadi sistemin təkmilləşməsi istiqamətində tənzimləyici siyasət aparan hökumətimiz kiçik və orta sahibkarlığın təşəkkülü və inkişafı ilə bağlı bir çox məqsədyönlü və sistemli tədbirlər həyata keçirir. Lakin, bu sahədə bir sıra problemlər hələ də qalmaqda davam edir. Bununla yanaşı, kiçik və orta sahibkarlığın səmərəli fəaliyyətinin təmin edilməsi üçün dövlətin strarteji siyasəti davamlı olmalı, düzgün müəyyənləşdirilməli, təsərrüfat fəaliyyəti ilə məşğul olan sahibkarlar arasında baş verə biləcək inhisarçılıq meyilləri bazar prinsipləri əsasında aradan qaldırılmalı, haqsız rəqabətin qarşısının alınması və aradan qaldrırılması tədbirləri ön plana çəkilməlidir.

Azərbaycanda kiçik və orta sahibkarlığın kapital qoyuluşu, maliyyə, vergi, kreditlə bağlı mürəkkəb qaydaların mövcudluğu, texniki və informasiya bazasının aşağı səviyyədə olması, onların ərazi üzrə qeyri-bərabər səpələnməsi, daxili bazarın müəyyən mənada məqsədəuyğun qorunmaması, bazar infrastrukturunun sonadək formalaşdırılmaması və onun müasir tələblər səviyyəsində təşəkkül tapmaması, qanunverici bazanın kifayət qədər qənaətbəxş səviyyədə olmaması, mövcud qanunvericilikdə bir sıra boşluqların olması, qanunvericiliyin əhatə dairəsinin kifayət qədər tam olmaması bu sahədə problemlərin olduğunu göstərir. Bu problemlər də öz növbəsində bir çöx məmur özbaşınalıqlarına yol açır və əfsuslar olsun ki bu tendensiya hələ də davam edir.

Yeni iqtisadi şərait tələb edir ki, hakimiyyət strukturlarında isləyənlər biznes sahəsində çalışan insanların qarşısında heç bir maneə yaratmamalıdırlar. Bu barədə dövlət başçımız möhtərəm prezident İlham Əliyev cənablarının 7 may 2020-ci il tarixli Modul tipli ilk xəstəxananın açılışında etdiyi çıxışında biznesə olan müdaxilə və biznes adı altında fəaliyyət göstərən məmur – oliqarx işbirliyi, məmur özbaşınalığı haqqında dedikləri buna əyani sübutdur (https://president.az/articles). Prezidentin

qeyd etdiyi kimi, bu cür neqativ halların davam edilməsi bizə çox ağır nəticələr verəcəkdir və bu hallar qəbuledilməzdir. Dövlət başçısı dəfələrlə ölkəmizin xammal iqtisadiyyatından innovasiyalı iqtisadiyyata keçməsinin vacibliyini qeyd etmişdir.

Təbii ki, bunu həyata keçirmək üçün ilk növbədə İnnovativ Təhsil Texnologiyasını bütün təhsil sisteminə ehtiva etmək lazımdır. İTT nə deməkdir? Bu ilk növbədə bir-biri ilə kompleks şəkildə bağlı olan üç tərtibatdır (Багаутдинов 2014:):

1. Müasir fənn biliklərinin öyrəncilər tərəfindən mənimsənilməsi ilə paralel olaraq onlarda müasir biznes praktikaya uyğun xüsusi məzmunlu qabiliyyətin yaradılması. Bu məzmun yüksək səviyyədə strukturlaşdırılmış və müasir rabitə vasitələrindən istifadə edərək ötürülən multimedia təlim materialları şəklində təqdim edilməlidir.

2. Müasir tədris metodları – yalnız materialların passiv qavranılması deyil, tələbələrin qarşılıqlı münasibətlərinə və onların təhsil prosesinə cəlb olunmasına əsaslanan səlahiyyətlərin formalaşdırılması üçün aktiv metodların təşkilinə yönəldilməlidir.

3. "Distant təhsilin üstünlüklərindən səmərəli istifadə etməyə imkan verən informasiya, texnoloji, təşkilatı və rabitə komponentlərini özündə cəmləşdirən müasir təlim infrastrukturunun ən müasir səviyyədə yaradılmalıdır".

Təbii ki, bu cür yüksək səviyyədə təhsil almış gənclər ölkə daxilində xüsusi kontingent olaraq seçiləcək və azad yaradıcılıq, azad sahibkarlıq fəaliyyəti, sağlam rəqabəti, yüksək təhsil sisteminin daxilində özlərinin ideal həyat sisteminə çevirəcəklər. Bu isə öz növbəsində elmin və innovasiyalar sənayesinin inkişafı, sosial kapital, habelə insanların bir-birinə etibarı və vətəndaşların hökumətə etimadını yüksəldəcəkdir.

## *Azad yaradıcılıq qabiliyyəti və onun inkişaf mərhələləri*

Bu konsepsiyanın əsasında müxtəlif sahələrdə yaranan problemlərin, biznes ideyalarının qeyri-adi həll yollarının tapılması durur. Burada azad yaradıcılıq və məhdudiyyətlərin tarazlığında birinciyə üstünlük verilməlidir. Bütün ənənəvi cəmiyyətlərin struktrunda həyatın dəqiq reqlamentasiyası var və bu tənzimləməni kütləvi psixologiya heç bir halda pozmağa cəsarət etmir. Lakin bu insanların arasında güclü intuisiyaya və istedada malik olan azlıq həmişə yaradıcılıq qabiliyyətini göstərmək

həvəsi ilə daha çox azadlıq, daha az reqlamentasiya tələbini irəli sürür. İnkişaf etmiş ölkələrin təcrübəsindən görünür ki, bu tələbatın onlara tam və bütov halda verilməsi prosesi bilik əsaslı iqtisadiyyatın və innovativ inkişaf nəticələrinin əldə olunmasına güclü stimul verir.

Bilik əsaslı iqtisadiyyat və innovativ inkişaf müasir dövrün texnoloji , sosial-iqtisadi çağırışlarına cavab verə bilən bir sistemdir. Post sənaye inkişafının müasir mərhələsi dövlət iqtisadiyyatının digər iqtisadi sistemlərə inteqrasiyası, kapitalın beynəlxalq konsentrasiyası, iqtisadi qloballaşma, məhsulların, xidmətlərin, insanların, ideyaların sürətli hərəkəti ilə xarakterizə olunur. Sənayenin inkişaf etmiş ölkələrdə altıncı texnoloji sistemə keçidi çox böyük sürətlə baş verir. Onun ən vacib komponentləri, yəni biotexnologiya, nanotexnologiya, molekulyar biologiyada əldə olunan nəticələr və genetik mühəndislik, robototexnika, idrak texnologiyası və süni intellekt sistemləri, qlobal informasiya şəbəkələri, yeni enerji və material novləri, yüksək sürətli nəqliyyat sistemləri və s. altıncı texnoloji sistemin əsasını təşkil etməklə dünya iqtisadiyyatının gələcəyini müəyyən edəcək.

Bu sistemi daha çox dünya praktikasında NBIC – abveraturası ilə işarələnmiş və baş hərfləri: N – nano; B – bio; I – info; C – koqno, ilk dəfə 2003 ildə hesabat şəklində "Converging Tecnologies for Improving Human Perfomance" Ümumdünya texnoloji qiymətləndirmə mərkəzində təqdim olunmuşdur (Technologies/ report).

Dünya iqtisadiyyatında inkişafın əsas resurslarını daha çox insanlar və onların malik olduğu biliklər, bir sözlə intellektual kapital və kadrların professional səriştəliyi təşkil edir. İri sənaye sahələrinə malik olan ölkələr kapitala meylənmiş keçmişdən bilik tutumlu gələcəyə istiqamətlənmişlər.

Təşkilatların hümanitar elmlərlə mühəndislik yanaşmaların kəsişməsində olan münasibətlərində sinergetik (açıq cəmiyyətlərdə müxtəlif təbiətli sistemlərin – fiziki, kimyəvi, bioloji, texniki, sosial və s. özünü təşkil prosesində baş verən qanunauyğunluqları və prinsipləri öyrənən elm.: R.M.) effektlərin alınmasına daha çox diqqət yetirmələri innovasiya iqtisadiyyatının əsas tələblərindən biridir. Biliklərin idarə olunması – bu o deməkdir ki. insan xüsusi anlayış dünyasına daxil olaraq orada yeni kateqoriyalarla, variantlarla, model və strukturlarla, metodlarla, texnoloji və qiymətləndirmə mexanizmləri ilə birbasa təmas quraraq onları effektiv idarə edir. Bu təşkilatı mexanizmlərin yeni sahəsi olub müxtəlif profilli kompaniyaların real rəqabətə davamlı üstünlüklərini təmin edir. Biliklərə söykənən iqtisadiyyat öz inkişafı mərhə-

*DOI 10.33864/MTFZK.*
*ISSN 2616-6879 (Print)*
*ISSN 2617-751X (Online)*

ləsində həmin bilikləri yaradır, genişləndirir və inkişaflı rəqabətə davamlı olmağı üçün özünə aid olan bütün sahələri və bu sahələrdə çalışan insanları təkmilləşdirərək yüksək innovativ xidmət göstərməyə həvəsləndirir. Bu sistemli mexanizmi yalnız institusional inkişaf mühitində olan problemlər, aşağı effektli dövlət idarəetmə və iqtisadi tənzimləmə, vençur sahibkarlığın inkişaf etdirilməməsi və yüksək inzibati səddlər dağıdıb məhv edə bilər.

## *Azad sahibkarlıq fəaliyyəti və onun yaradıcılıq qabiliyyəti*

Sahibkarlıq fəaliyyəti heç də yeni kəşflərin yox mənfəətin axtarışında olan bir anlayışdır. Onun fəaliyyəti tamahkardır və onun təbiətindən irəli gələn bu faktor onun fəaliyyət göstərdiyi mühitdə sözün həqiqi mənasında xeyrli sayılmaqdadır. Bu fəaliyyət daima azad nəzarət altında saxlanılmaqla hüquqi və etik normalar çərçivəsinə salınmalıdır. Sahibkar innovativ yeniliklərin tələbatçısı olub, onları özündəki yeniliklərlə zənginləşdirərək bu trendi cəmiyyətə öz malı kimi təqdim edir və tələbat-təklif simbiozunda alıcının bütün arzularını özünün toteminə çevirir. Lakin diqqət etdikdə görünən odur ki, Azərbaycan sahibkarları hətta ətrafımızda olan ölkələrin sahibkarlarından da, yeniliyə, innovasiyalara olduqca az vəsait xərcləyir. Əsas səbəb bizdə olan sahibkarlıq fəaliyyətinin gənc olması, əl altında olan texnoloji imkanlardan istifadəyə meyillilik və müəyyən mənada yerli sahibkarların, biznesin daxili “orqanlarında“ olan inzibati qorxu sanki bütün innovativ səyləri cilovlayır. Ən əsası isə dövlət tərəfindən verilən sifarişlərdə olan korrupsiya mexanizmləri – məmurla kim bölüşürsə onun da normativləri o birilərindən üstün olur prinsipi – olan yerdə innovasiyalardan söhbət belə gedə bilməz. Bu kontekstdə dövlət-sahibkar əməkdaşlığı konsepsiyasına qısa nəzər salmağımız bizə innovativ iqtisadiyyatın gələcək konstruksiyasını müəyyən etmək imkanlarını verəcəkdir.

Effektiv milli innovasiya sisteminin formalaşması və texnoloji modernləşmə innovasiyalı idarəetmə faəliyyətinin effektiv metodlarını tələb edir. İnnovasiyaların və investisiya mexanizmlərin çatışmazlığı daima problem olaraq qalır. Bu məsələlərin həllində büdcə maliyyələşdirilməsi konsepsiyası ön plana çıxaraq Dövlət – Xüsusi Mülkiyyət Tərəfdaşlığı (DXMT.: R.M.) münasibətlərini sürətli inkişafın perspektivli mexanizmi kimi ortaya qoyur. Bu sistemin ən mühüm addımı nəticələrə hədəflənmiş DXMT-ni büdcə maliyyələşdirilməsi mexanizminə keçirilməsidir. Burada

əsas yanaşma konsepsiyası büdcə maliyyəsini proqram, yəni hədəf metodları əsasında uzunmüddətli məqsədli proqramlara yönəldilməsidir. Bu sistemdə dövlət öz məsuliyyətli hərəkətləri ilə yerinə yetirilməli olan bütün funksiyalara effektiv yanaşır. "DXMT – öz funksiyalarına effektiv yanaşmaqla icraların keyfiyyətini yüksəldir" (Gerrard 2001:).

Göründüyü kimi, dövlətin təşşəbüsü ilə yaradılan sistem əsas maliyyələşdirmədən səmərəli istifadə qaydalarını birbaşa vəsaitlərdən istifadə üçün rəqabət mexanizminə çevirir. Bu sistemi bahalı maliyyə lahiyələrindən institutların daxilində hazırlanmış lahiyələrin səmərəli nəticələrinə keçirməklə daha da gücləndirmək olar.

DXMT, xarici ölkələrdə də mühüm infrastruktur lahiyələrinin və innovasiya proqramlarının inkişafında özünün yüksək effektivliyini göstərmişdir. "Bu cür perspektivli mexanizmlərin, o cümlədən, tikinti işlərində dövlətin xüsusi mülkiyyətçini özünə tərəfdaş kimi seçməsi, rekonstruksiya, modernləşmə, texniki xidmət, infrastruktur obyektlərinin istismarında, habelə risklərin bölüşdürülməsi şərti ilə əhaliyə müxtəlif xidmətlərin göstərilməsində, müqavilə və kontraktların bağlanmasında, normativ aktların imzalanmasında, səlahiyyətin və məsuliyyətin bölüşdürülməsi kimi faktorlar DXMT - ni həyat əhəmiyyətli orqana çevirir" (Баженов 2010: 26-39).

DXMT dən istifadə təcrübəsi göstərir ki, bu mexanizmlər dövlətin və biznesin biri-birini tamamlayan maraqlarından çıxış edir və heç vaxt ayrı – ayrılıqda müstəqil hərəkət edə bilmir. Bir sözlə dövlət və yerli özünü idarəetmə orqanları vətəndaşların qarşısında xüsusiləşdirilmiş xidmət və məhsulların istehsalı məsuliyyətini xüsusi mülkiyyətçi tərəfdaşına həvalə etməklə ondan daha artıq risklərin idarə olunması, əlavə kapitalin cəlb olunması və bazar tənzimləmələrindən səmərəli istifadəsini tələb edir.

DXMT innovasiya mühitində inkişaf etdirən zaman biz bir effektiv dövlət timsalında aparıcı – lider dövlətlərin təcrübəsindən yararlanmalıyıq. İlkin olaraq bu əsasda dövlət və biznesin qarşılıqlı əlaqələndirmə konsepsiyasına üçlü spiralvarı (TripleHelix) ideyası kontekstində nəzər salaq. Bu ideya Birləşmiş Statlarda Böyük Depressiya vaxtında yaranmış və bütün institusional müvəkkilərin – institutların, dövlətin və biznesin – iqtisadi inkişafı naminə əməkdaşlığını əsas məqsəd kimi göstərmişdir. "Massaçuset texnoloji institutunun prezidenti K. Komptonun təklif etdiyi qarşılıqlı hərəkətlər modelinə əsasən yaradılan hər hansı bir şirkət əsas mənbə sayılan inistitutların ətrafında cəmlənməlidir" (Ицковиц 2011: 7-11).

*DOI 10.33864/MTFZK.*
*ISSN 2616-6879 (Print)*
*ISSN 2617-751X (Online)*

Müasir dövr üçün üçlü spiralvarı model konsepsiyasını keçən əsrin 90-cı illərində Stenford universitetinin professoru, Üçlü Spiralvari Assosasiyasının Prezidenti Henri İçkoviç işləyib hazırlanmışdır.

Dövlət, biznes və universitetlər arasında qarşılıqlı əlaqə modelinə ad seçilərkən DNT-nin (DezoksiriboNuklein Turşusu.: R.M.) spreylərinin görünüşü ilkin nümunəvi model mənbə kimi götürülmüşdür. Bu modeldə universitetlərə mərkəz kimi əsas yer verməklə, belə desək "sahibkarlıq universitetləri" yaradılması nəzərdə tutulur. Lakin bununla belə spiralvari proseslərdə innovasiya təşəbbüsləri hər bir üç tərəf arasından bərabər surətdə irəli sürülməklə ideal nəticələrin alınmasına xidmət edir.

Yuxarıda qeyd etdiyimiz kimi "sahibkarlıq universitetlərin" yaranması əlbətdə ki, universitetlərin missiyasını və ictimai funksiyalarını köklü surətdə dəyişməsini tələb edir. Bu dəyişiklik nəticəsində universitetlər əvvəlki təhsil və elmi təsisatlar sistemindən çıxaraq sahibkarlıq düşüncəli universitetlərə çevrilir, innovasiya mərkəzləri kimi fəaliyyət göstərərək elmin və təhsilin yeni məqsədlərini, yeni səviyyələrini qeyd etdiyimiz kimi spiralvari inkişaf etdirərək institutlaşdırılmış iqtisadiyyatın nailiyyətlərini ortaya çıxarır.

## *İntellektual kapital*

Yüksək təhsil sistemi ümumilikdə azad yaradıcılıq və innovativ iqtisadiyyatın açarı hesab olunur. Bu tələblər iki əks mövqeli – birinci halda bütün vətəndaşların yüksək peşəkar ixtisasları mənimsənilməsinə və əmək bazarında bu ixtisaslara uyğun işlə təmin edilməsinə, ikinci halda ən zəkalı və elmli adamların ortaya çıxarılaraq hazırlanması, bu adamların yaradıcılıq axtarışlarına geniş imkanların yaradılması – həllinə güclü təkan verir. Əsas məsələ bütün qabiliyyətli gənclərin cəmiyyətdə onların valideynlərinin tutduğu vəzifə və zənginlikdən asılı olmayaraq bərabər imkanlara malik olmasıdır.

İntellektual kapital təşkilatın işçilərinin toplam biliklərinin cəmi olaraq həmin təşkilata rəqabətə davamlı təminat verir. "İntellektual kapital anlayışını" (Гелбрейт 1969:) ilk dəfə elmi dairələrə amerika iqtisadçısı, Kaliforniya, Harvard və Priston universitetlərinin professoru, XX əsrin görkəmli iqtisadçi – nəzəriyyəçisi Con Kennet Helbreyt (1908 – 2006) daxil etmişdir.

İntellektual kapitalın (intellectual capital: R.M.) əsas xüsusiyyəti təşkilatın, şirkətin bildiyini özündə cəmləşdirməsidir. Bu cəmə ideyalar, müxtəlif tipli biliklər, innovasiyalar, nou – hau, şirkətə daxil olan bütün əməkdaşların bildikləri, şirkətin bilik bazası, müştərilərdən toplanmış kommersiya məlumatları, bir sözlə, bazar şəraitindəki dəyişikliklərə və rəqiblərə daha sürətli cavab vermək üçün lazım olan bütün vasitələr daxildir. İntellektual kapital açıq və gizli birləşmə olub təşkilatın, şirkətin bildiklərini real gəlir mənbəyinə çevirən bir konsepsiyadır. Lakin konsepsiyada kiçik bir qarşıdurma, daha doğrusu sağlam rəqabət faktorunun meydana çıxması: intellektual kapitalla fiziki kapitalın təşkilatdaxili fərqləndirilməsi məsələsi intellektual kapitalın resurslarının universal olmasını bir daha sübut edir.

Fiziki kapital maddi təbiətə malikdir, ona toxunmaq və onu görmək olar. Bunun əksinə olaraq, intellektual kapitalı şərti olaraq görünməz aktiv kimi qəbul etmək lazımdır. Fiziki kapital keçmişdə müəyyən mənada edilən hərəkətlərin nəticəsi kimi, intellektual hərəkətlərdə keçmiş investisiyaların nəticələri olsa da, gələcəyə yönəlmiş bir faktordur. Bu əsasda intellektual kapital şirkətin fiziki, maliyyə və əmək kapitalının beyin mərkəzinə çox asanlıqla daxil olur və şirkətin, təşkilatın gələcək biznes lahiyələri üçün effektiv inellektual kapital strukturları yaradır. Bu sahədə ən mükəmməl tədqiqat işini Leyf Edvinsson və Maykl Mellonun "İntellektual kapital. Kompaniyanın həqiqi dəyərinin müəyyən edilməsi" əsərini saymaq olar (Intellectual Capital).

L. Edvinsson məhşur İsveç maliyyə korporasiyası "Skandiya" da direktorlar şurasını üzvü olaraq dünyada ilk dəfə bir neçə illər ərzində aparılmış unikal tədqiqatlardan sonra 1995-ci ilin mayında intellektual kapitalın istifadəsi haqqında hesabatı çapa vermişdi (Edvinsson 1994: 373).

"Skandia Dəyər Sxemi" adlanan bu hesabatda göstərilən intellektual kapital strukturu dünyada ilk bu tipli model kimi qəbul edilmişdir. Edvinsson və Melouna görə İntellektual kapital "kompaniyanın binaların və mal çeşidlərinin gözəgörünən tərəfi arxasında gizlənən kökü, onun inkişafının gizli şərtidir" (Edvinsson 1994:).

Beləliklə bu konsepsiyaya əsasən rəhbərlərdən əsas tələb təşkilatın, şirkətin bilik mənbələrini qoruyub saxlamaqla onları həmin təşkilatın mülkiyyətinə çevirməkdir. Nəticədə "iş gününün bitməsinə baxmayaraq təşkilatın sahib olduğu biliklər evə getmir" (R.M.) və həmin şirkətin striuktur kapitalının daxilində intellektual kapitalın əsasını təşkil edir. Bu kapital bütövlükdə təşkilata məxsus olub texnologiyala-

rın, kəşflərin, məlumatların, patentləşdirilmiş nəşrlərin, qanunla müdafiə olunan müəllif hüquqlarının toplusu kimi şirkətin strategiya və mədəniyyətini, struktur və sistemini, təşkilatı qayda və prosedurlarını müəyyən edir. Bu növ kapitalın idarə edilməsi şirkətin aksioner kapitalının artmasına səbəb olur. Məsələn, Maykrosoft şirkətinin bazar qiyməti 1 trilyon dollar dəyərləndirilirsə, onun əsas fondlarının hesablanmış dəyəri 400 milyard dollar, yerdə qalan 600 milyard dollar isə şirkətin intellektual kapitalı kimi hesablanır (https://www.vedomosti.ru).

İntellektual kapitalın sistemli idarə olunması onun bazar qiymətlərinin artması ilə nəticələnir və ümumi biliklərin, ixtisaslaşdırılmış təcrübələrin istifadə mexanizmlərin mərhələli keşidlərə ardıcıllığını təmin edir. Təbii ki, bu cür effektiv sistem yeni biliklərin mənimsənilməsini və onların ötürülməsini sürətləndirir, keçmiş vaxtlardan bizlərə "miras" qalmış sənəd üzərində ideyaların hərəkəti və süründürməçiliyini neytrallaşdırır. Əvvəlki orta halqada olan idarə rəhbərləri planlaşdırma, təşkil etmə, icra etmə və nəzarət etmə prinsipləri əvəzinə müəyyən etmə, qidalandırma və bölüşdürmə prinsiplərindən tam istifadə etməlidirlər. Bu prinsiplər yalnız təşkilatda horizontal əlaqələr vasitəsilə hərəkət edir və elastik struktur yaradaraq əlavə təşkilatı xərcləri minimuma endirir. Məlumdur ki, təşkilatın daxilində mövcud olan müxtəlif strukturlar arasında "sosial xərclər mübahisəsi, sosial xərclər problemi və bu problemlərin həll nəzəriyyəsi" (Коуз 2007:) ilk dəfə Nobel mükafatı laureatı Ronald Kouz tərəfindən işlənib hazırlanmışdır.

Təşkilat daxili strukturlar arsında inellektual kapital strukturu yuxarıda göstərilən nəzəriyyələrin həllində yaxından iştirak edir. Belə ki, bu struktura insan kapitalı, yəni əməkdaşların bilik və səriştələri, yaradıcılıq qabiliyyətləri, mənəvi dəyərləri, əmək mədəniyyəti, daha sonra təşkilatı kapital – texniki və proqram təminatı, intellektual mülkiyyətin obyekti sayılan patentlər və lisenziyalar, müəsissənin təşkilatı strukturu və strateji idarəetmə və tələbat kapitalı – müştərilərlə əlaqə, müştərilər haqqında məlumat, müştərilərlə olan münasibətin tarixi, tanınma və münasibətlərin həlimliyi daxil olması bir daha bu strukturun sosial yönlü olmasını təsdiqləyir.

Beləliklə intellektual kapital potensialını aqreqatlaşdırılmış virtual proseslərə məqsədyönlü şəkildə daxil edilməsi özünü döğruldur və formal anlayış sayılan məlumat potensialını – bura proseslər və obyektlər daxil olaraq fiziki orjinalların virtual analoqlarını yaradaraq eyni tipli funksiyaları yerinə yetirir. İntellektual kapital prob-

leminin öyrənilməsi institutlaşdırılmış məlumat şəbəkə iqtisadiyyat kontekstində qeyri-adi aktuallığı ilə nəzərə çarpır. İntellektual kapitalın struktur rolunu institutlaşdırılmış məlumat-şəbəkə iqtisadiyyatı modelinə yönəldilməsi şirkətlərin, təşkilatların və ən əsası dövlətin iqtisadi paradiqmalarının daha dəqiq, daha sürətli strateji manevr etməsinə geniş imkanlar yaradacaqdır.

## *İnstitutlaşdırılmış iqtisadiyyat və səmərəli dövlət*

İnstitutlaşdırılmış iqtisadiyyat ictimai institutların qarşılıqlı iqtisadi münasibətlərini öyrənən iqtisadi sahə olub, iki ümumi xüsusiyyəti özündə birləşdirir. İqtisadi nəzəriyyələrin predmet - mövzu sahəsinin genişləndirməsi və buna uyğun, tədqiqat metodlarını formalaşdıran təməl ehtimalların modifikasiyası. İnstitutlaşdırılma nəzəriyyələri əsasında iqtisadi cərəyanlar XIX əsrin axirlarında alman iqtisadi məktəblərinin təməlində ingilis məktəbləri ilə rəqabət əsasında yaranmışdır.

Alman siyasi iqtisadiyyat modeli müxtəlif ölkələrin iqtisadi həyatında vahid hərəkət qanunlarının mümkünlüyünü inkar edir. Bu məktəblərin nümayəndələri hesab edir ki, universal iqtisadi nəzəriyyə yoxdur və hər bir ölkənin milli siyasi iqtisadiyyatını onun inkişafına uyğun təssərüfat faktorlar məcmusu müəyyən edir. Alman tarixi məktəbinin banisi Fridrix List (1789-1846) siyasi iqtisadiyyatın predmetini “siyasət, hansıki millət ona riayət etməklə iqtisadi inkişafda tərəqqiyə nail olacaq“ kimi müəyyən etmişdir (Лист 2005:).

Öz metodoloji köklərini alman tarixi məktəblərindən götürən institutlaşdırma iqtisadiyyatı XIX əsrin axırlarından baslayaraq Birləşmiş Ştatlarda iqtisadiyyatın bütün sahələrində tətbiq edilməyə başlandı. Bu konsepsiya həmin dövrdə iqtisadi elmlərdə olan ənənəvi metodlara qarşı çıxış edərək “iqtisadi insan“ modelində insanı maddi maraqlarını təmin etmək üçün rasional hərəkət edən eqoist kimi göstərir. Bundan başqa bəzi tənqidçilər tərəfindən bir çox xüsusi təssərüfat subyektlərinin davranış qaydaları təhlil edilərkən onların metodoloji individualizmə məruz qalmaları məlum olmuşdur. Başqa sözlə desək, iqtisadiyyatın institutlaşdırılması sosial, hüquqi, siyasi, təşkilatı, psixoloji və digər ictimai münasibətlərin təhlil və tətbiq edilmə mexanizmləri ilə sıx bağlıdır.

İqtisadiyyatın institutlaşdırılması cəmiyyətdə institut-qaydalar formulasını hakim mövqeyə çıxardaraq, razılaşdırılma iqtisadiyyat istiqamətini (elmi dairələrdə bu

istiqamət fransız institusionalizmi və bu məktəbin görkəmli nümayəndələri L.Teveno, L. Boltanski, O. Favoro, F. Emar – Dyüverne və başqaları hesab edilir. R.M ) effektiv dövlət sistemi kimi müəyyən edir. " Bu məktəbin əsas nəzəri əsaslarını cəmiyyətin mürəkkəb sistem olaraq bir neçə: bazar, sənayeləşmə, ənənəvi, vətəndaş, ictimai rəy, yaradıcılıq və ekoloji altsistemlərdən ibarət olması konsepsiyası təşkil edir" (Болтански 2000:).

Birinci alt sistem digərlərinin tələbatını ödəməklə fərdi faydalılığı ifratlaşdırır və bazar münasibətlərinin tipik davranış qaydalarını müəyyən edir.

İkinci alt sistem fasiləsiz istehsal prosesini təmin edərək sənayeləşmənin tipik davranış qaydalarını müəyyən edir.

Üçüncü alt sistem icmanın yaşamaq hüquqlarını və yaşa görə üstünlük prinsiplərini təmin edərək ənənəvi davranış qaydalarını ailə, klan, diaspora və dini icmalara ehtiva edir.

Dördüncü alt sistem Pareto prinsipinə (yəni cəmiyyətin umumi rifahı maksimuma catdırılır və sistemdə olan hər hansı bir iqtisadi sübyektin rifahı bu dəyişiklik nəticəsində pisləşərsə və yaxud dəyişərsə vəsaitlərin və rifahın paylanması qaydaları dərhal optimallaşdırılır) hədəflənərək hakimiyyət orqanlarının siyası fəaliyyətini vətəndaş alt sisteminin yaradılmasına yönəldir.

Beşinci alt sistem özünə lazım olan mənfətlərə çatmaq üçün kütləvi informasiya vasitələrindən, saiyələrdən istifadə edərək ictimai rəyi formalaşdırır və maliyyə bazarlarında özünün ictimai rəy alt sistemini yaradır.

Altıncı alt sistem innovasiyalarıın alınması və tətbiq edilməsinə xidmət edir və biznesin inkişafına xidmət edən elmi tədqiqatlar fəaliyyətini stimullaşdırır. Burada alınan uğurlar və mənfəətlər cəmiyyətə yaradıcılıq davranış qaydaları kimi təqdim edilir.

Yeddinci alt sistem tam surətdə təbiətin mühafizəsinə yönəlmiş bir sistem olub, ətraf mühitin vəziyyəti barədə məlumatı özündə cəmləyərək ekoloji alt sistemini yaradır.

"Bu altsistemlərdə öz növbəsində hər biri daha xırda altsistemlərdən ibarət ola bilər. Belə ki, onlar qarşılıqlı asılılıq prinsipi ilə hərəkət edir və onlardan ən balaca altsisteminin düzgün fəaliyyət göstərməməsi ümumilikdə bütün sistemə təsir göstərir" (Мескон 1992).

Göründüyü kimi effektiv dövlət sisteminin fəaliyyəti sistem altında müstəqil hərəkət edən altsistemlərin fəaliyyətindən asılıdır. Belə institutlaşdırılmış iqtisadi nəzəriyyə ictimai həyatda baş verə bilən hər hansı bir iqtisadi yanaşmaların, iqtisadi kataklizmaların və iqtisadi böhranların öhdəsindən çox asanlıqla gələ bilir və effektiv dövlətin təməl prinsiplərini qoruyub saxlayır.

Müasir institusionalizmin inkşaf dalğası yeni nəzəriyyələrin – transaksiya məsarifləri nəzəriyyəsi, xüsusi iqtisadi mülkiyyət nəzəriyyəsi, ictimai seçim nəzəriyyəsi və insan kapitalı konsepsiyası – meydana çıxmasına səbəb oldu. Bu məktəbin aparıcı nümayəndələrindən – iqtisadiyyat üzrə Nobel mükafatı laureatı: Ronald Kouz (1910-2013 ), Herbert Saymon (1916-2001), Ceyms Byukenen (1919-2013), Duqlas Nort (1920-2015), Robert Foqel (1926-2013 ), Elinor Ostrom (1933-2012), Harri Beker (1930-2015), Oliver Uilyamson (1932) və institusionalizmin gənc nəslinin nümayəndələri olan C. Hocsonu, R. Nelsonu, S. Uinteri və J. Sapiri nümunə kimi göstərmək olar (Олейник 2002).

Bu cərəyanın əksər nümayəndələrinin nəzəriyyələrində individual fərqlər olmasına baxmayaraq onları iqtisadi metodların analizi və sosial problemlərin həlli məsələsi birləşdirirdi. Beləki insanın iqtisadi davranışlar modelinə baxdıqda daha çox problemin həllində metodoloji fərdiyyətçilik, yararlığın ifratlaşdırılması və opportunist davranış qaydaları üstünlük təşkil edir. Beləliklə effektiv dövlətin institusional problemlərinə nəzər saldıqda ilkin mərhələdə altsistemlərin aparıcı rola malik olması, bu nəzəriyyələrin əksər halda müstəqil inkişaf etmə tələbi və ictimai həyata tətbiqi yeni institusionalizmin bir necə əsas konsepsiyasını ortaya çıxartmışdı:

İqtisadi nəzəri metodlarla siyasi, hüquqi və sosial təzahürlərin öyrənilməsi;

İctimai həyatda baş verən görüntülərin konkret izahı üçün ümumi prinsipli neoklassik nəzəriyyələrdən, yəni deduktiv metoda istinadən istifadə olunması;

Mikroiqtisadiyyatın standart aparatlarından və nəzəriyyə oyunlarından istifadə etməklə institutların analiz edilməsi;

İnstitutların oyun nəzəriyyələri çərçivəsində qaydalar və normalar kimi qəbul edilməsi və bu zaman mühüm faktor kimi mülkiyyət hüquqlarına xüsusi diqqət yetirilir.

Özünə yeni tədqiqat sahələrini, yəni ailə münasibətləri, etika, siyasi həyat, irqi münasibət, cinayətkarlıq, cəmiyyətin tarixi inkişafını tabe edərək inkişaf edən və möhkəmlənən neoklassok paradiqmanın öyrənilməsi və tətbiqi.

Neoklassik paradiqmanın daxili hüdudlarında genişlənmə və modifikasiya hərəkətləri yerinə yetirilir və eyni zamanda ən real olmayan ilkin şərtlər ləğv edilir.

İqtisadi elmlərin magistral istiqaməti genişləndirilir, inkişaf etdirilərək tamamlanır və insanlar arasında olan bütün münasibətlərə qarşılıqlı faydalı mübadilə prizmasından baxılaraq müqavilə paradiqması formalaşdırılır.

Təhlilin mərkəzində müstəqil fərd öz istəyi və öz maraqlarına uyğun olaraq, hansı kollektivin və hansı şəraitin onun üçün daha sərfəli olduğunu qərara alır.

Səmərəli dövlət belə konseptual yanaşma metodlarından fundamental surətdə öz varlığını qoruyub saxlamaq üçün istifadə etməsi nəticə etibarı ilə çox qəribə səslənsə də ölkənin daxilində intensiv olaraq orta sinif elitasını formalaşdırar və istənilən vaxt dövlət maraqlarını öz şəxsi maraqlarına qurban verməyə hazır olan yuxarı sinif elitasını neytrallaşdırar.

Hələlik isə bizim əlimizdə tıxaclanmış – müqəddəs dövlət dəyərləri var ki, inkişafa mane olur, beləki ona "əl ilə" (tətbiqi elmlə: R.M.) toxunmaq olmaz və nəticədə "əl ilə" toxunulmayanı da inkişaf etdirmək olmaz.

Azərbaycanda nəsildən nəsilə istedad və yaradıcılıq qabiliyyətinə malik olan insanlar doğulur və bu tendensiya xöşbəxtlikdən davamlı xarakter daşıyır. Tam əminliklə demək olar ki, bu tendensiya bizim əlimizdə olan kəşf edilmiş və yaxud istismar olunan nef-qaz yataqlarından qat-qat ustun bir dəyərdir. Lakin bu yaradıcılıq qabiliyyəti standartların və qanunların keyfiyyətinə və kəmiyyətinə tabeçilik xarakteri daşıyır, daha dəqiq desək texniki və ictimai hərəkətlər toplusundan asılı olarq qalır. Müəyyən sahələr vardır ki, bu yaradıçılıq potensialı (bura xalq yaradıcılığının bütün sahələrini nümunə kimi göstərmək olar) fərdiyyətlərlə bizi dünyada tanidib. Lakin bütün bunlar innovativ texnologiyalar əsrində yalnız mənəvi dəyərlərin inkişafına xidmət edən bir proseslər olub standartlardan kənara çıxa bilmir.

## *Nəticə*

Sonda dünya səhnəsində yaxın vaxtlarda baş verən və baş verə biləcəyi bir neçə xüsusi əhəmiyyətli hadisələrə diqqət çəkməyimizi mühüm bir məlumat-xəbərdarlıq kimi hesab edirəm.

Birləşmiş Ştatlar Çin dövlətini ixrac sahəsindən sıxışdırıb çıxartmaq üçün çox fəal siyasət yürüdür. Bu siyasətin aktivliyi gücləndikcə, yəni Çinin ixracı azaldıqca

onun neft və qaz idxalı da azalacaqdır. Belə tendensiya ilə üzləşən Çin təbii ki, bütün inzibati mexanizmlərini işə salaraq (vergi, rəqəmsal texnologiya), enerji tələbatını aşağı salacaq qənaət rejimini ümumdövlət prinsipi elan edəcəkdir.

Buna oxşar situasiyada Hindistanda (oranın da hakimiyyəti neftin tələbatını inzibati yollarla azaltmaq üçün müxtəlif yollar axtarır) baş verir. Hadisələrin belə inkişafı enerji daşıyıcılara olan tələbatı yarıbayarı azaldacaqdır. İstisna etmək olmaz ki, insanlar COVID-19 pandemiyasından sonra daha çox vaxtlarını ev şəraitində keçirsinlər – məsafəli iş rejimi, onlayn; xidmətlər əksər sahələri əhatə edərək həyatımızın qaydalarına çevriləcəkdir.

Avropada da buna oxşar hadisələr baş verəcək, “yaşıl“ enerji mənbələri və enerjidaşıyıcılara qənaət prinsipi əlavə impulsalar alacaqdır. Başqa bir tərəfdən hamının fikirləşdiyi koronovirusla olan situasiya düzələn kimi enerji daşıyıcıların qiyməti qalxacaqdır ideyasına qarşı hal-hazırda dünya iqtisadiyyatında dərinləşən böhran əks təsir göstərərək bu tendensiyanı daha da ağırlaşdıracaqdır. Nəticədə neftin aşağı qiymətləri iqtisadi inkişafı enerji daşıyıcılarından asılı olan ölkələri çətin vəziyyətə salacaqdır. Turizm şirkətlərinə dəyən ağır iqtisadi zərbə dünya üzrə bir çox hava yolları şirkətlərini müflis edərək uçuşlarda istifadə olunan yanacaq tələbatını ən aşağı minimuma endirəcəkdir. Azərbaycan neftinin keyfiyyət etalonunun bu sıradan həmin bazara istiqamətlənməsini nəzərə alsaq vəziyyətin bizim üçün heç də ürəkaçan olmadığını görə bilərik.

Digər tərəfdən bu mərhələlərdə neft sahəsinin tempdə saxlanılmasına (əvvəldən yeyilmiş amortizasiya tutulmaların kompensasiyasına) millyonlarla vəsaitin qısa bir zamanda xərclənməsi neft sənayesini ağır vəziyyətə salacaqdır.

Bəzi dövlətlərin qızıl ehtiyyatlarını artırılması, müxtəlif valyuta ehtiyatlarının yığıldığı fondlara ümidlə baxması yalnız qısa müddətli xakterə malik olub tez bir zamanda “əriyib“ yoxa çıxan amillər sırasındadı. Nümunə kimi göstərmək olar ki, Çinin qızıl ehtiyyatları Rusiyanın qızıl ehtiyyatlarından dəfələrlə az olmasına baxmayaraq Çin iqtisadiyyatı dünyanın ikinci iqtisadiyyatı sayılır (Новое направление, 2014). Beləki bu bu ölkədə başa düşürlər ki, çiçəklənmənin əsasında müxtəlif ehtiyyat fondları və yaxud tonlarla qızıl ehtiyyatı yox, inkişaf etmiş innovativ iqtisadiyyat durur.

Belə bir sistemin qurulması tələbini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illər-

də sosial-iqtisadi inkişafı Dövlət Proqramı“ nın təsdiq edilməsi haqqında 29 yanvar 2019-cu ildə verdiyi fərmanla bir daha təsdiq etmişdir (http://www.e-qanun.az). Bu proqram çərçivəsində birinci ilin yekunlarına həsr olunmuş konfransda dövlət başçısı həm də qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində mühüm tapşırıqlar vermişdir. Bu o deməkdir ki, müasir düşüncəli dünya “neft erası”nın qürubuna yaxınlaşdığını başa düşür və bu nəticədə neftlə bağlı olan iri hasilat şirkətləri, boru kəmərləri, bazarlar və bu bazarları idarə edən müxtəlif tipli müharibələr lazımsız məşğuliyyətə çevriləcəkdir. Çox az bir zamana malik durumdayıq.

## *Ədəbiyyat siyahısı*

1. Edvinsson, L. (1994). *Visualizing İntellectual Capital in Scandia*. L. Edvinsson, M. Malone. Stocholm.
2. Gerrard M.B. (2001). Public-Private Partnerships. *Finance & Development*. Vol. 38. № 3. URL: http://www.imf.org/external
3. *Technologies for Improving Human Performance: Nanotechnology, Biotechnology, Information Technology and Cognitive Science*. NSF/DOC-sponsored report (2002) / ed. by M.C. Roco and W. S. Bainbridge, National Science Foundation, Arlington, Virginia. (482 p.). Burada bax: Technologies report NBIC_report.pdf
4. The French Convention School and the Coordination of Economic Action. Laurent Thévenot Interviewed by Søren Jagd (2004). *Economic Sociology: European Electronic Newsletter*. Vol. 5. No. 3. June. P. 10–16. http://econsoc.mpifg.de/
5. Babaev, E. D. (2015). Transformation of intellectual capital in the information-network economy (on the example of information capital). "*Modern science-intensive technologies. Regional appendix"* No. 3 (43), p.18-23 (in Russian)
6. Bagautdinova, A.Sh. (2014) Innovative educational technologies in higher education. Scientific journal of NRU ITMO. Series "*Economics and Environmental Management*", No. 1
7. Bazhenov, A. (2010) Public-private partnership in Russia: state and development prospects. *STAGE: economic theory, analysis, practice*, No. 2, p.26-39 (in Russian)
8. Hasanov, R. (2019). Institutions and entrepreneurship. *Metafizika*, Vol. 2, (no. 4, seriya 8), (s. 7-26). DOI 10.33864/MTFZK.2019.39
9. Gelbraith J. (1969). *New industrial society*. per. from English. Moscow: Progress, 480 s.
10. Efimov, V. (2007) Subject and method of interpretive institutional economics. V. Efimov. *Problems of Economics*. - No. 8. - P. 49-67
11. Efimov M.V. (2015). Institutional Approach in Economics and Economics. Part I, *Journal of Institutional Studies*, Volume 7, (No. 3), pp.6-50
12. Itskowitz, G. (2011) Model of the triple spiral. // *Innovations* №4 (150). (s. 7-11)
13. Coase, R. (2007). *Firm, market and law*. Per. from English. M: New ed., 224 p. - (Library of the Liberal Mission Foundation)
14. Liszt, F. (2005). *National system of political economy*. Moscow: Ed. "Europe", (379 p.)
15. Makarov, A.V. & Vorobieva, O.A. (2005). Intellectual capital of an organization in anti-crisis management. *Bulletin of the Udmurt University*. Series "Economics and Law", (No. 3), (p.15-21)

16. Mescon, M., Albert, M., & Hedouri, F. (1992). *Fundamentals of management*. Translation from English. Moscow: Delo. (645 p.)

17. Oleinik, A.N. (2002). *Institutional Economics: Textbook*. - M.: INFRA-M. (416 p.)

18. Pankrashina, N.V. (2015). Advantages of distance learning in modern education. *Electronic journal*. (№ 1), (p. 277-232). http://co2b.ru/docs/enj.2015.01.277.pdf

19. Trends in distance learning: methods and technologies. Internet journal "*Science of Science*" ISSN 2223-5167 https://naukovedenie.ru/

20. *Development Economics Across Decades: A Critical Look at 30 Years of World Development Reports*. (Shahid Yusuf, Angus Deaton, Kemal Dervish, William Easterly, Takatoshi Ito and Joseph Y. Stiglitz). World Bank Ves Mir Publishing House Moscow (2012). (242 p.)

***Dr. Rasim Majidov***

## *Role of Governance Principles in the Institute of State Structures in Azerbaijan*

*(abstract)*

*In the article, for the analysis of the problem posed, approaches are widely used that are rooted in modern economic reality and are inherent in the theories of institutionalism. New economic conditions require the Azerbaijani state and the contingent of civil servants working in government to implement effective management programs based on political, economic, social and moral concepts. Institutional changes can provide Azerbaijan with free access to domestic and foreign markets and, as a result, provide our country with the opportunity to accept regional capital (mainly the entire Caucasus) as a "gift" of fate. The article discusses the process of institutional changes in on-farm organizations from the point of view of the theory of private property, transaction costs, contractual theories and rules of social behavior, as well as ways to ensure that effective state mechanisms fully meet modern requirements. This problem is considered from the point of view of methodological approaches set forth in the theories of classical institutionalism and neoinstitutionalism. The article analyzes the institutional problems of free creativity, free entrepreneurial activity, intellectual capital in the framework of structural capital, institutionalized economy and an effective system of government, an effective state. It is concluded that as a result of a policy based on these economic concepts, a person's free creative ability is formed, and the search for mutual benefit between people becomes a real social incentive. The principle of combining and complementing the in-*

*terests of the collective and society as a whole with the personal will and interests of an independent individual should be adopted as a factor that serves the institutionalization of state structures and the formation of a social state.*

**Keywords:** *institutions, social state, management subsystems, intellectual capital, innovation, free enterprise*

***Др. Расим Меджидов***

### *Роль Принципов Управления В Институте Государственных Структур В Азербайджане*

*(резюме)*

*В статье для анализа поставленной проблемы широко используются подходы, которые коренятся в современной экономической реальности и присущи теориям институционализма. Новые экономические условия требуют от азербайджанского государства и контингента государственных служащих, работающих в государственных органах, реализации эффективных программ управления, основанных на политических, экономических, социальных и моральных концепциях. Институциональные изменения могут предоставить Азербайджану свободный доступ к внутренним и зарубежным рынкам и, как следствие, предоставить нашей стране возможность принять региональный капитал (главным образом, весь Кавказ) в качестве «подарка» судьбы. В статье рассматривается процесс институциональных изменений внутрихозяйственных организаций с точки зрения теории частной собственности, трансакционных издержек, договорных теорий и правил социального поведения, а также рассматриваются способы обеспечения того, чтобы эффективные государственные механизмы полностью отвечали современным требованиям. Эта проблема рассматривается с точки зрения методологических подходов, изложенных в теориях классического институционализма и неоинституционализма. В статье анализируются институциональные проблемы свободного творчества, свободной предпринимательской деятельности, интеллектуального капитала в рамках структурного капитала, институционализированной экономики и эффективной системы государственного управления, эффективного государства. Делается вывод о том, что в результате политики, основанной на этих экономических концепциях, формируется свободная творческая способность человека, и поиск взаимной выгоды между людьми становится реальным социальным стимулом. Принцип совмещения и дополнения интересов коллектива и общества в целом с личной волей и интересами независимого индивида должен быть принят в качестве фактора, который служит*

**DOI 10.33864/MTFZK.**
**ISSN 2616-6879 (Print)**
**ISSN 2617-751X (Online)**

*институционализации государственных структур и формированию социального государства.*

**Ключевые слова:** *институты, социальное государство, подсистемы управления, интеллектуальный капитал, инновации, свободное предпринимательство*

*Məqalə redaksiyaya daxil olmuşdur: 27.07.2020*
*Təkrar işləməyə göndərilmişdir: 27.08.2020*
*Çapa qəbul edilmişdir: 01.12.2020*